# *FAO nümayəndəsi:*
# "Qlobal aqro-ərzaq sistemlərinə hər il təxminən 1 trilyon dollar investisiya lazımdır"

**"Net sıfır və iqlim davamlılığı hədəflərinə çatmaq üçün qlobal aqro-ərzaq sistemlərinə indidən 2030-cu ilə qədər hər il təxminən 1 trilyon dollar investisiya lazımdır".**



Bunu Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) nümayəndəsi Ceffri Qrifin COP29 çərçivəsində "İqlim və biomüxtəliflik arasında əlaqə: dayanıqlı gələcək üçün inteqrasiya olunmuş həllər" adlı tədbirdə deyib.

Onun sözlərinə görə, dünyada torpaqların 1/3-i deqradasiyaya uğrayıb və hər il 100 milyon hektar kənd təsərrüfatı torpağı deqradasiyaya məruz qalır: "Kənd təsərrüfatı sabit iqlim, inkişaf edən biomüxtəliflik və sağlam torpaqdan asılıdır. COP29 başa çatdıqca iqlim maliyyələşməsi üzrə ambisiyaları artırmaq və planet üçün işləyən aqro-ərzaq sistemləri həllərinə investisiya qoymaq lazımdır".

Azərbaycan.- 2024.- 22 noyabr (№ 257).- S.15.